# YAP-ın qərarı xalqın birmənalı seçimi olacaq




**Bu gün Yeni Azərbaycan Partiyasının qurultayı keçiriləcək. Qurultayda qarşıdan gələn növbədənkənar prezident seçkilərində YAP-ın namizədi elan olunacaq. Mövzu ilə bağlı Milli Məclisdə hakim partiyanı təmsil edən deputatların fikirlərini öyrəndik.**





## Azərbaycanın müstəqilliyinə və daha qüdrətli dövlətə çevrilməsinə səs verəcəyik

**Nəsib MƏHƏMMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin sərəncamı ilə aprel ayının 11-də respublikamızda növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçki kampaniyasına hələ start verilməsə də, artıq bir neçə gündür ki, cəmiyyətimiz qarşıdan gələn bu seçkiyə köklənib. Görünən odur ki, Azərbaycan xalqının seçimi dəyişməzdir və bu seçkidə də ən layiqli namizəd olan Prezident İlham Əliyevi dəstəkləyəcək.

Öncə onu qeyd edim ki, 2018-ci il ölkəmizin ictimai-siyasi həyatında bir sıra hadisələrlə əlamətdardır. Belə ki, biz bu il mühüm əlamətdar tarixlərin və hadisələrin - ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini, Milli Qurtuluş Gününün 25-ci ildönümünü qeyd edəcəyik. 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması ilə əlaqədar ölkəmizdə beynəlxalq tədbirlər, o cümlədən Beynəlxalq Humanitar Forum keçiriləcək. Bütün bunları nəzərə alsaq prezident seçkilərinin aprel ayına təyin olunması olduqca düzgün və vaxtında verilmiş qərardır.

Seçkilərin vaxtının təyin olunması Konstitusiyaya əsasən ölkə rəhbərinin səlahiyyətində olan məsələdir. Bu mənada seçkinin keçirilmə vaxtının ictimaiyyətin müzakirə mövzusu olmaması tamamilə məntiqlidir. Seçkinin nə vaxt keçirilməsindən asılı olmayaraq Azərbaycan ictimaiyyəti öz seçimini 2003-cü ildən edib, 2008-ci və 2013-cü illərdə isə bu seçimi bir daha təsdiqləyib. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda əldə edilən mütərəqqi nailiyyətlərin - hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin həyata keçirilməsi, sosial-iqtisadi sferada islahatların bəhrəsini verməsi, ən əsası, Azərbaycanın müstəqil dövlət kimi adını dünya dövlətlərinin sırasına yazması və digər uğurlar ümummilli liderin siyasi kursunun davam etdirilməsini 2003-cü ildə sosial sifariş olaraq zəruri edirdi. Heydər Əliyev ideyalarının davamçısı isə onun siyasi məktəbinin ən layiqli yetirməsi, ulu öndərin siyasi kursunu davam etdirməyə qadir olan bir şəxs ola bilərdi. Çox doğru və haqlı olaraq bütün Azərbaycan ictimaiyyətinin diqqəti cənab İlham Əliyevə yönəlmişdi. Çünki yalnız İlham Əliyev ümummilli liderin milli mənafelərə köklənmiş missiyalarının ən layiqli daşıyıcısı idi. 2003-cü ilin prezident seçkiləri ərəfəsində böyük öndər Heydər Əliyev də xalqa müraciətində siyasi varislik məsələsi ilə əlaqədar çox mətləbləri açıqlayaraq dövlətin idarə edilməsini İlham Əliyevə etibar olunmasını məsləhət bilirdi: *"Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin firavanlığı yolunda çox işlər görəcəklər... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Bəli, ötən 14 il ulu öndərin öz ümidlərində yanılmadığının təsdiqi olub. Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olduğunu, cəmiyyətdə alternativsiz lider kimi qəbul edilməsini ölkəyə rəhbərliyinin ilk vaxtlarından sübuta yetirdi. O dövrdə bütün anti-azərbaycançı dairələrin təzyiqlərinə, hətta təhdidlərinə baxmayaraq, Prezident İlham Əliyev öz qətiyyətli siyasəti ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisini başa çatdırdı, ulu öndərin neft strategiyasının uğurla reallaşmasını təmin etdi. BTC-dən başlanan uğur seriyası isə İlham Əliyevin ölkəyə prezidentliyinin bütün mərhələlərini əhatə etdi. Belə ki, ötən 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Ölkədə qazlaşdırmanın səviyyəsi 93 faizə çatıb, 30 elektrik stansiyası, 4 yeni su anbarı, 7 hava limanı, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi, 43 olimpiya idman kompleksi tikilib, Oğuz-Qəbələ-Bakı su xətti, Bakı-Tbilisi-Qars dəmir yolu inşa olunub, 12 min 300 kilometr yol çəkilib, Azərbaycan kosmik dövlətə çevrilib. Eyni zamanda artan maliyyə imkanları həm də Azərbaycanın öz təhlükəsizliyini daha etibarlı şəkildə formalaşdırmağa imkan verib, Ermənistanla müharibə şəraitində ölkəmizin siyasi-hərbi üstünlüyünü təmin edib.

Dövlət başçısının uzaqgörən siyasəti, genişmiqyaslı islahatçı fəaliyyəti, o cümlədən müstəsna təşkilatçılığı sayəsində bütün bu istiqamətlərdə qazanılmış nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində milli iftixar və ölkəmizin işıqlı gələcəyinə dərin inam hisslərini daha da gücləndirib. Hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını yüksəldib, milli həmrəyliyi daha sıx edib.

Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının qurultayında qarşıdan gələn seçkidə cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul olunub. Bu gün isə Yeni Azərbaycan Partiyasının qurultayı keçiriləcək və biz qarşıdan gələn seçkidə partiyamızın sədri, ulu öndərin layiqli davamçısı, son 14 ildə Azərbaycana uğurla rəhbərlik edən cənab İlham Əliyevin namizədliyini dəstəkləyəcəyik.

Həm YAP, həm də həmkarlar təşkilatları sıralarında yüz minlərlə insanı, Azərbaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirir. Bu mənada qarşıdan gələn seçkilərdə də Azərbaycan seçicisinin seçimi aydındır. Biz cənab İlham Əliyevin namizədliyini dəstəkləməklə əldə olunan uğurların davamlı olmasına, Azərbaycanın müstəqilliyinə və daha qüdrətli dövlətə çevrilməsinə səs verəcəyik.

## Heydər Əliyev yolunun davamı, inkişaf və güclü dövlətçilik

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı,YAP Ağdaş rayon təşkilatının sədri:*

- Respublikamız mühüm siyasi hadisə ərəfəsindədir. Prezident İlham Əliyevin 5 fevral tarixli sərəncamı ilə aprelin 11-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkilər mühüm siyasi hadisədir. Odur ki, hazırda bütün ölkə ictimaiyyətinin bir nömrəli mövzusu qarşıdan gələn seçkilərdir.

Təbii ki, hər bir seçkinin əsas məqamı namizədin müəyyən edilməsidir. Ölkənin hakim və aparıcı siyasi partiyası olaraq Yeni Azərbaycan Partiyası bu gün öz qərarını elan edərək möhtərəm sədrimiz, öz fəaliyyəti ilə son 15 ildə Azərbaycanı inkişaf yoluna çıxaran və tarixinin ən güclü dövlətinə çevirən cənab İlham Əliyevin namizədliyini irəli sürəcək. Partiyamızın bu qərarı təkcə sıralarımızda birləşən 710 mindən artıq üzvün deyil, ölkə ictimaiyyətinin mütləq əksəriyyətinin arzusunun ifadəsi kimi tarixə düşəcək. Çünki xalqımız inkişafın, sabitliyin, yüksək sosial rifahın və güclü dövlətçiliyin tərəfdarıdır. Bütün bunlara nail olmaq isə son 15 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi prezidentlik fəaliyyətinin əsas prioritetləri olub. Reallıq da ondan ibarətdir ki, 2003-cü ilin oktyabrından ötən dövr Prezident İlham Əliyevin xalqımıza verdiyi uğur hesabatıdır. Bu hesabatın hər bir səhifəsi məhz xalqımızın görmək istədiyi uğurlarla əlamətdardır.

Olduqca qürurvericidir ki, ötən 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradır. Bütün bu müsbət dəyişikliklər isə ulu öndərin qoyduğu yolun davamından başqa cür qiymətləndirilə bilməz. Dinamik sosial-iqtisadi inkişaf, ölkəmizin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin siyasi-ictimai irsinin, ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.

Azərbaycanın qısa zaman kəsiyində böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən böyük uğurlarından biridir. Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və qüdrətlənir. İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi-iqtisadi və sosial uğurlara nail olub. Azərbaycan qlobal maliyyə böhranlarını qısa müddətdə inkişafla əvəzləyib. Bu gün respublikamız siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Beləliklə, Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifidir.

Ən əsası Prezident İlham Əliyev bu gün müstəqil Azərbaycan dövlətinin qarantı missiyasını daşıyır. Bu göstərici Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf tempinə görə dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi enerji-kommunikasiya, nəqliyyat layihələrinin əsas iştirakçısı statusunda çıxış edən ölkəmiz Avropa regionunun enerji təhlükəsizliyi missiyasını öz üzərinə götürüb. Azərbaycan insanının dəyişən gün-güzəranı, şəhər, kənd və qəsəbələrimizin abadlığı, respublikamızda işsizlik-yoxsulluq kimi ağır sosial bəlaların aradan qalxması, Azərbaycanda demokratiyanın təntənəsi, qanunların aliliyi, haqqın-ədalətin zəfəri bu günün gerçəkliyidir.

Beləliklə, ötən 15 ildə Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimizin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləmiş, ictimai inamı tam doğrultmuşdur. Dövlət başçısının fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal qərarlar qəbul etməyi, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır.

Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə, ulu öndər Heydər Əliyevə minnətdardır. Xalqımız ümummilli liderə həm də ona görə minnətdardır ki, İlham Əliyevi xalqımıza bəxş etdi. Çünki məhz İlham Əliyevin sayəsində bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunu daha da zənginləşdirən Prezident İlham Əliyevin siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi, titanik işgüzar keyfiyyətləri, ən əsası isə xalqa olan dərin məhəbbəti, vətənpərvərliyi müstəqil Azərbaycan dövlətinin gələcək inkişafına təminat verən yeganə amildir. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti bundan sonra da böyük tərəqqi yolu keçəcək və yaxın dövrlərdə inkişaf etmiş dövlətlərin cərgəsinə qoşulacaq.

Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Qarşıdan gələn seçkilərdə də Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin seçimi məhz İlham Əliyevdir. Çünki bu seçim Heydər Əliyev yolunun davamı, inkişaf və güclü dövlətçilik deməkdir və Azərbaycan xalqı buna alternativ görmür.

*Hazırladı;*
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 8 fevral.- S.3.